*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 dekabr 2016-cı il № 100 (2115) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan güclü dövlətdir və güclü ordusu var

*Müasir Azərbaycan tarixinin təxminən son 40 ili böyük öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin.*



1993-cü ildə ölkəni dərin iqtisadi, siyasi böhrandan xilas etmək üçün ümummilli lider Heydər Əliyev Naxçıvandan Bakıya dəvət edildi və yalnız bundan sonra respublikada vəziyyət dəyişməyə, sabitləşməyə başladı. Ümummilli Liderin rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər oldu, yeni o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağı bacardı və respublikamızın inkişafı üçün zəmin yaratdı. Bundan sonra böyük çətinlikləri dəf edən Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi. Beləliklə, xalqımızın təkidli tələbilə yenidən hakimiyyətə qayıtmış dünya şöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyev ölkəni titanik səyləri bahasına müstəqil inkişaf yoluna çıxardı, ölkədə siyasi sabitlik, iqtisadi inkişaf üçün möhkəm zəmin yaradıldı.

Böyük iqtisadi layihələrin gerçəkləşdirilməsi, əhalinin güzəranının tədricən yaxşılaşması Azərbaycan üçün taleyüklü sahə olan ordu quruculuğunda da əsaslı keyfiyyət dəyişikliklərinə gətirib çıxardı. Qeyd etmək lazımdır ki, Heydər Əliyev Silahlı Qüvvələrimizin təşəkkül və inkişafında əvəzsiz xidmət göstərmişdir. Əslində, ölkəmizdə ordu quruculuğu prosesi məhz Ulu Öndərin adı ilə bağlıdır. Onun layiqli davamçısı İlham Əliyev hakimiyyətə gəldikdən sonra Ümummilli Lider tərəfindən hazırlanmış zəmin üzərində ölkənin hərtərəfli inkişafı gerçəkliyə çevrildi.

(Ardı 4-cü səhifədə)



"Tabeliyimdəki döyüşçülərin də Vətən sevgisi güclüdür"

5-ci səhifədə



"Seçdiyim peşə, tutduğum yol ürəyimcədir"

5-ci səhifədə



"Sərhədlərimiz bərpa olunacaq"

6-cı səhifədə



Müharibə veteranları gənclərə örnəkdir

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# “Silahlı Qüvvələrin şəxsi heyəti qarşıya qoyulan vəzifələri məsuliyyət hissi ilə yerinə yetirməyə daim hazırdır”

## Müdafiə Nazirliyində geniş kollegiya iclası keçirilib



*Artıq 2016-cı ilin son günləridir. Bu ilə nəzər yetirdikdə Silahlı Qüvvələrimizin şəxsi heyəti üçün bir sıra əlamətdar hadisələrlə yadda qalacağını yəqin etmək olar. Dövlətə və xalqa sədaqətlə xidmət etməyi qarşısına məqsəd qoymuş hərbi qulluqçular il ərzində keçirilmiş mühüm təlim və məşğələlərdə uğurlu göstəricilərə nail oldublar. Müxtəlif qoşun bölmələrinin şəxsi heyəti əməli fəaliyyəti ilə Vətən qarşısında fədakarlıq nümunələri göstərməyə hazır olduğunu sübuta yetirib.*



Bu il Azərbaycanın tarixinə doğma ordumuzun aprel zəfəri ilə yazıldı. Ermənistan silahlı bölmələrinin aprelin əvvəllərində cəbhənin müxtəlif istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar ordumuzun hazırlıqlı hərbi bölmələri tərəfindən qətiyyətlə dəf edildi. Düşmən döyüşçülərimizin hünər və şücaəti qarşısında tab gətirməyərək geri çəkilməyə məcbur oldu. Nəticədə bu vaxta qədər işğalda olan ərazilərin bir qismi və bir neçə mühüm əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçdi. Bu qələbə Azərbaycanın hərbi qüdrətini bütün dünyaya nümayiş etdirərək torpaqlarımızın istənilən vaxt hərbi yolla azad ediləcəyini işğalçı dövlətə daha dərindən anlatdı.



Aprel döyüşlərindən sonra cəbhə bölgələrinə səfər edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yerli əhalinin nümayəndələri və döyüşçülərimiz qarşısında çıxış edərək bildirdi ki, aprel döyüşləri bizim şanlı tariximizdir. "Ordumuz düşmənin hücumuna cavab olaraq hərbi qələbə qazanmışdır. Ordumuz əlverişsiz mövqelərdə əks-hücum əməliyyatı keçirərək böyük bir ərazini düşməndən azad etmişdir. Ermənistanın uzun illər öz ordusu haqqında yaydığı mifi darmadağın edildi. Azərbaycan əsgəri, zabiti göstərdi ki, nəyə qadirdir".

Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən yayılan məlumata əsasən, dekabrın 21-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov vun rəhbərliyi ilə 2016-cı tədris ilində qoşunların hazırlığı üzrə yekunlara dair geniş kollegiya iclası keçirilib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollegiya iclasında hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib, perspektiv məsələlər müzakirə edilib.

İclasda geniş məruzə ilə çıxış edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edərək aprel döyüşlərində əldə edilən uğurların dövlətimizin, ordumuzun qüdrəti, xalqın həmrəyliyi və vətənpərvərliyinin nəticəsi olduğunu vurğulayıb, əldə edilən nailiyyətlərdən danışıb.

Nazir hesabat dövründə görülən tədbirlərin təhlilini apararaq davam edən islahatlar, döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və ordunun hərtərəfli təminatından danışıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2017-ci tədris ilində Silahlı Qüvvələr qarşısında duran əsas vəzifələrin yerinə yetirilməsi məqsədilə komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub.

Sonra kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

Kollegiya iclasına yekun vuran Müdafiə naziri general-polkovnik Zakir Həsənov əminliklə vurğulayıb ki, Silahlı Qüvvələrin şəxsi heyəti qarşıya qoyulan vəzifələri yerinə yetirməyə daim hazırdır.

Müdafiə nazirinin əmrinə əsasən, döyüş hazırlığının yekunlarına görə 2016-cı tədris ilində xidmətdə fərqlənən hərbi qulluqçular müxtəlif medallarla təltif edilib, təşəkkür, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**"Azərbaycan Ordusu",**
**fotolar**
**Natiq İSAYEVİNDİR**

# Silahlanmadakı “İldırım” zenit-raket komplekslərindən döyüş atışları icra edilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi hərbi qüvvələrin döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qəfil yoxlanması həyata keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş şəraitinə maksimum yaxın vəziyyətdə həyəcan siqnalı ilə qaldırılan şəxsi heyətin hazırlığı, praktiki bacarığı və döyüş vasitələrinin tətbiqi imkanları yoxlanıb.

Qəfil yoxlama çərçivəsində silahlanmada olan "İldırım" zenit-raket komplekslərinin də hazırlıq vəziyyətinə gətirilməsi və döyüş atışları icra edilib.

Praktiki atışlar zamanı şərti düşmənin intensiv radioelektron və atəş təsiri şəraitində qanadlı raketləri, alçaqdan



uçan və aerodinamik hədəfləri imitasiya edən hədəflərin aşkarlanması və avtomatik izlənməyə götürülməsi, qərar qəbul edilməsi, onlara qarşı atəş açılması və hədəfin effektiv məhv edilməsi tapşırıqları uğurla həyata keçirilib. Döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib.

Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarında yoxlamalar davam edir.

# Müdafiə naziri ön xətdə yerləşən bölmələrin hazırlığını yoxlayıb





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbər heyəti müdafiənin ön xəttində yerləşən bölmələrdə olub və üzbəüz düşmən mövqelərini müşahidə edib.*

Şəxsi heyətlə görüşən Müdafiə naziri hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə nazirinə ərazidəki əməliyyat şəraiti, bölmələrimizin hazırlıq vəziyyəti və qarşı tərəf barədə ətraflı məruzə edilib.

Ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçuları qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibəti ilə təbrik edən general-polkovnik Zakir Həsənov Ali Baş Komandanın adından xidmətdə fərqlənənlərə medallar və mükafatlar təqdim edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Cəbhəboyu zonada yeni hərbi şəhərcik istifadəyə verilib

*Azərbaycanda siyasi hakimiyyətə gəldiyi gündən ordu quruculuğunu inkişaf etdirməyi qarşısına məqsəd qoymuş Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlar nəticəsində ölkəmizin hərbi qüdrəti artıb və hərbi qulluqçuların sosial qayğıları həllini tapıb. Dövlətimizin başçısı çıxışlarında daim bəyan edir ki, çətin və məsuliyyətli tapşırıqların öhdəsindən gələrək Vətənimizi qoruyan əsgər və zabitlərin əməyi yüksək qiymətə layiqdir.*



Hazırda elə bir cəbhə rayonu tapılmaz ki, orada şəxsi heyətin sosial şəraitini yaxşılaşdırmaq üçün ardıcıl işlər görülməsin. Bu gün ən ucqar cəbhə xəttində də döyüşçülərin məişət qayğıları həll edilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışlarında daim qeyd edir ki, orduda həyata keçirilən quruculuq işləri dövlətin və xalqın Silahlı Qüvvələrə göstərdiyi güclü dəstəyin nəticəsidir. Dünyanın hər yerində böhran yaşanmasına, iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycanın dövlət rəhbərliyi hərbi qulluqçuların, cəbhə bölgəsində çətin və təhlükəli mövqelərdə vəzifə borcunu yerinə yetirən şəxsi heyətin qayğılarını həll etməyi prioritet vəzifələrindən biri hesab edir.

Dövlətin və xalqın qayğısından ruhlanan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları da bu qayğıya cavab olaraq daha da nümunəvi xidmət edir və hərbi tapşırıqları böyük məsuliyyət hissi ilə yerinə yetirirlər.



Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən dekabrın 23-də yayılan məlumatda qeyd olunduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, yeni tikilən növbəti hərbi kompleksin açılışı olub.



Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi şəhərciyin ərazisindəki qərargah, döyüş texnikası saxlancları, əsgər yataqxanaları, yeməkxana, qazanxana-camaşırxana kompleksi, ərzaq anbarı, tibb məntəqəsi, sıra meydanı və digər obyektlər ilə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq əldə edilən uğurlardan danışıb, döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Nazir hərbi hissədə çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə bağlı müvafiq göstəriş və tövsiyələrini verib.

**"Azərbaycan Ordusu", fotolar Natiq İSAYEVİNDİR**

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan güclü dövlətdir və güclü ordusu var

(Əvvəli 1-ci səhifədə)

Hələ Milli Məclisin deputatı olduğu dövrdə İlham Əliyev geniş və çoxşaxəli fəaliyyətilə ölkə ictimaiyyətinin diqqətini özünə cəlb etmişdi. Avropa Şurasının Parlament Assambleyasında ölkə parlamentinin daimi nümayəndə heyətinin rəhbəri kimi onun fəaliyyəti nəticəsində Avropanın ən uca kürsülərində xalqımızın haqlı mövqeyi eşidilməyə başlamışdı. Milli Məclisin deputatı olaraq Azərbaycan dövlətinin maraqlarını Avropa Şurasında qətiyyətlə müdafiə etmiş, mövcud çətinliklərə baxmayaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə bağlı ölkəmizin xeyrinə bir sıra mühüm qərarların qəbulunda önəmli rol oynamışdı.

Azərbaycanın siyasi həyatında yorulmaz fəaliyyətilə xalqın etibarını və inamını qazanmış İlham Əliyev ölkəmizin avanqard qüvvəsi -gənclərilə bağlı mühüm addımların atılmasında böyük pay sahibidir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin edilən İlham Əliyev yüksək təşkilatçılıq istedadına malik olduğunu əməli fəaliyyətilə sübut etdi. Həmin illəri Azərbaycan idmanının intibahı dövrü adlandırmaq yerinə düşər, çünki pəhləvan və atletlərimiz əsasən o zamandan mötəbər arenalarda yüksək nəticələr göstərməyə, Azərbaycanın üçrəngli bayrağını tez-tez böyük stadion və salonlarda yüksəltməyə başladılar. Respublikamızda sağlam həyat tərzinin təbliğində mühüm amil kimi idman hərəkatı yeniyetmə və gənclər arasında ildən-ilə geniş vüsət aldı, Avropa, dünya çempionatlarında və Olimpiya oyunlarında idmançılarımız yeni-yeni zəfərlər əldə etdilər, Vətənimiz beynəlxalq aləmdə həm də idman ölkəsi kimi şöhrət qazandı.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin regionda və dünyada söz sahibi olan dövlət kimi tanınması və dünyaya inteqrasiyası üçün vacib xidmətlər göstərib. Bir sıra önəmli iqtisadi, xüsusilə Xəzərin ölkəmizə məxsus sektorunda enerji layihələrinin gerçəkləşdirilməsində Prezident İlham Əliyevin xidmətləri danılmazdır. Məhz bu layihələr respublikamıza investisiya axınını sürətləndirdi, iqtisadiyyatın inkişafına, Azərbaycanın tərəqqisinə, şəhər və kəndlərimizin simasının dəyişməsinə səbəb oldu. Dövlət başçısının qətiyyətilə həyata vəsiqə qazanmış daha bir böyük layihə - Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilişi yaxın zamanlarda başa çatacaq.



Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Siyasi, sosial, iqtisadi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırmaqdadır. Çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan bu gün həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında mühüm rol oynayan nüfuzlu dövlətə çevrilib.

2008-ci ildə Azərbaycan özünün rabitə peykini orbitə çıxarmaq haqqında qərar qəbul etdi. Beş il sonra Azərbaycanın ilk süni peyki orbitə çıxarıldı. Bu isə o demək idi ki, Azərbaycan kosmik ölkələr sırasına daxil olub.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərdən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyini əldə edərək 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illərdə dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi. Əldə edilən möhtəşəm uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyilə əldə edilib.

Ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Müstəqilliyimizin və suverenliyimizin dayağı olan Silahlı Qüvvələrimizin qarşısında dayanan taleyüklü vəzifələri yerinə yetirməyə qadir olması üçün dövlət rəhbərliyi bütün lazımi tədbirləri görür.

Azərbaycan Silahlı Qvvələri ən müasir silah və texnika ilə silahlanıb, yüksək intizama və döyüş hazırlığına, hərtərəfli təchizata malikdir. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir və silah-sursatla təchizatı, döyüş qabiliyyəti baxımından hazırda Cənubi Qafqazın ən güclü ordusudur.

Silahlı Qüvvələrimizin daha da gücləndirilməsi və döyüş potensialını artırması üçün ayrılan vəsait hesabına hərbi hissələrimizdə son illərdə böyük dəyişikliklər baş verib. Və bu dəyişikliklər təkcə günün tələblərinə cavab verən müasir silah və texnikanın alınmasını, ordunun döyüş texnikası və avtomobil parkının yenilənməsini əhatə etmir. Hazırda hərbi hissələrimizin bütövlükdə infrastrukturunun təzələnməsi istiqamətində geniş işlər aparılır, şəxsi heyətin döyüş hazırlığını artırması üçün imkanlar genişləndirilir.

Dövlət başçısının bu mövqeyi ordu rəhbərliyinin və hər bir zabit, gizir və əsgərin üzərinə əlavə məsuliyyətlər qoyur. Vətənimizin qarşısında duran Qarabağ kimi taleyüklü problemin həllinə hazır olmaq üçün ordumuzda, hərbi hissələrimizdə nizam-intizamın, döyüş hazırlığının daha da yüksəldilməsi üçün kompleks döyüş hazırlığı tədbirləri gerçəkləşdirilir, irimiqyaslı təlimlər keçirilir. Hərbi hissə və birləşmələrdə şəxsi heyətin ixtisas və taktiki ustalığın artırmaq, hərbi intizamı daha da möhkəmləndirmək, hərbi kollektivlərdə mənəvi-psixoloji hazırlığı, döyüş ruhunu yüksəltmək Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qoşunlarımızın qarşısına mühüm vəzifə kimi qoyulub.

Silahlı Qüvvələrimizin son illərdə döyüş hazırlığı sahəsində nəyə nail olduğunu təmas xəttində baş vermiş aprel döyüşləri bütün dolğunluğu ilə dünyaya nümayiş etdirdi. Bölmələrimiz düşmən təxribatlarının qarşısını alaraq işğal altında olan 2 min hektardan çox ərazini uğurlu əks-hücum əməliyyatı nəticəsində ermənilərdən təmizlədi.

Bu yaxınlarda irimiqyaslı təlimlər ərəfəsində cəbhə bölgəsinə səfəri zamanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cəsur Azərbaycan zabit və əsgərlərilə görüşərkən qürur hissilə bildirdi: "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik".

Silahlı Qüvvələrimizin gücləndirilməsi Azərbaycanın gücləndirilməsi deməkdir. Qüdrətli Azərbaycan isə münasib siyasi-hərbi zəmin yarandıqda işğal altında olan torpaqlarımızın Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə düşmən tapdağından azad edilməsində tutarlı arqument olacaq.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş atışlı təlimləri davam edir





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Müdafiə Nazirliyinin 2016-cı il üçün döyüş hazırlığı planına əsasən, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının döyüşə hazırolma səviyyəsinin yoxlanılması davam edir.

Qoşunların kompleks hazırlığı çərçivəsində modernizə edilmiş bir neçə "S-125" zenit-raket qurğularından növbəti döyüş atışları icra edilib. Komplekslərdən atılan səmərəli atışlar nəticəsində bütün hədəflər aşkar edilərək məhv edilib.

Təlimdə hava məkanını pozan şərti düşmənin aşkarlanaraq onun haqqında informasiyanın döyüşü idarəetmə məntəqəsinə çatdırılması və real atəş zərbələri ilə hədəflərin dərhal məhv edilməsi tapşırığı uğurla yerinə yetirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən döyüş hazırlığı təlimlərində iştirak edən şəxsi heyətin praktiki vərdişləri və atışlarının nəticələri yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Tabeliyimdəki döyüşçülərin də Vətən sevgisi güclüdür”



*Düşmənlə üzbəüz yerləşən döyüş postlarından birində onunla tanış olmaq fürsəti qazandım. "Həyat təcrübəsi insana çətin gündə aşılanır" deyənlər yanılmırlar. Təcrübəli döyüşçü kiçik çavuş Vurğun Ağazər oğlu Sahilova da bu fikri aid etmək düzgün olardı. Geniş dünyagörüşünə, ağıl və düşüncəyə malik olmaq üçün hər kəs həyatın əzab-əziyyətindən üzüağ çıxmağı bacarmalıdır. Sahilov da ömrünün gənclik çağında cəbhə xəttində xidmət edərək bərkə-boşa düşüb, pisi-yaxşını görüb. Bir həqiqəti dərindən başa düşüb ki, həyat mübarizlərin meydanıdır.*

- Bu dağların hər qarışı mənə doğma, əzizdir, çünki gəncliyimi - ömrümün əsgərlik çağını burada keçirmişəm, - deyə çavuş söhbətimizdə bildirir. - Hərbi xidmət dövrünü bir həyat nümunəsi hesab edənlər haqlıdır. Məncə, bu dövr insanı müstəqil həyat üçün hazırlayan əsas məktəbdir. Təcrübəli komandirlərim, cəfakeş silahdaşlarım olub, hamısından öyrənməyə, görüb-götürməyə çalışmışam. Aqillərdən kimsə deyib ki, həyat bir səhnə, biz isə aktyorlarıq. Bu fikirdə böyük hikmət var, hamı həyat adlı səhnədə öz rolunu oynayıb gedir. Baxır ki, kim rolunu necə ifa edir? Bacarıqlı, nümunəvi əsgər də sonradan cəmiyyətdə öz yerini tapır, xalqına, dövlətinə sədaqətlə çalışır.

Heç yadımdan çıxmaz, qış fəsli bir dəfə yaman sərt gəlmişdi. Yollar sürüşkən olduğuna görə işə maşınsız gəlirdim. İctimai nəqliyyatda, arxa tərəfdə əyləşmişdim. Növbəti dayanacaqda körpəsi olan bir qadın qapıya yaxınlaşanda yanımda dayanmış bir gənc ondan köməyini əsirgəmədi. Ayağa durub öz yerimi qadına göstərdim. Cavana isə əl uzatdım, minnətdarlıq bildirdim. "Komandir, borcumdur" dedi. Yolboyu sorğu-suala tutdum. Öyrəndim ki, ən mürəkkəb bir şəraitdə - Murovdağ adlanan bölgədə xidmət keçib. Xəyal məni bir anlıq o dağlar diyarına apardı. Sonuncu dəfə bir payız çağında getmişdim ora. Amma payız olmasına baxmayaraq aran ərazilərimizlə müqayisədə o dağlarda havalar yaman sərt keçirdi. Döyüş postlarında



məğrur Vətən müdafiəçiləri ilə görüşəndə düşünmüşdüm ki, bu gənc döyüşçülərimiz həm də sabahımızın təəssübkeş, zəhmətsevər vətəndaşları olacaqlar. Avtobusda rastlaşdığım gənc də onlardan biriydi, dağlıq bölgədə keçən hərbi xidmət dövrü onu da, sözün həqiqi mənasında, mətin bir insan kimi yetişdirib.

"Tabeliyimdə olan gənclərə asudə vaxtlarımda əsgərlik həyatımdan, o dövrün çətinliklərindən söhbət açıram. İzah edirəm ki, nümunəvi, əlverişli şərait indi yaranıb, əvvəllər belə deyildi. Soyuqdan, şaxtadan donmamaq üçün özümüz odun tədarükü görərdik. Hansı bölmədə odun azlıq edirdisə, hamı onlara əl tuturdu. Amma indi əsgərlərin yataqxanası müasir istilik sistemi ilə təchiz edilib, əşya-ərzaq təminatı xeyli yaxşılaşıb. Əsgərlər ev xörəklərinin həsrətini çəkmir, çünki təcrübəli qadın aşpazlar milli xörəklərimizi, kələm-yarpaq dolması, küftə, plov bişirirlər. Belə gözəl şəraitdə xidmət etməyə nə var ki. Biz də dövlətimizin, ordu rəhbərliyinin belə qayğısına cavab olaraq daim döyüş vərdişlərimizi artırmağa, hərbi xidmətdə nümunəvi olmağa borcluyuq."

Bu sözlərin müəllifi Ağsu rayonundan olan təcrübəli döyüşçü kiçik çavuş Vurğun Sahilovdur. Ömrünün gənclik hissəsini hərbi xidmətdə keçirməsindən qürurlandığını bildirir. Deyir ki, müstəqil dövlətçiliyə, Vətənə, bayrağımıza sevgisi olan hər kəs hansı sahədə olmasının fərqinə varmadan sədaqətlə, məsuliyyət hissi ilə çalışmalıdır. "Müəllim əgər yaxşı vətəndaş tərbiyə etməyi, alim elmdə yeni kəşflər, həkim isə xəstəsini düzgün müalicə etməyi bacarırsa, bütün bunlar Vətənə sədaqət nümunələridir. Mən də bir hərbçi olaraq Vətənimizin xidmətində dayandığım üçün qürurluyam."

Manqa komandiri deyir ki, tabeliyimdəki döyüşçülərdə Vətən sevgisi güclüdür.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**22 dekabr 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 35 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Fərəhli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**23 dekabr 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 37 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu Cəfərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Seçdiyim peşə, tutduğum yol ürəyimcədir”



"Azərbaycdan Ordusunda xidmət edən hər bir vətəndaş Ali Baş Komandanın əmrini gözləyir. Hər bir azərbaycanlı Vətən torpağı uğrunda canını, qanını verməyə hazırdır." Bu fikirləri ezamiyyətlərin birində tanıdığım gənc zabit Rəşad Eyvaz oğlu Məmmədov dedi. "Ağdamın Güllücə kəndində ziyalı ailəsində dünyaya göz açmışam. Böyüyüb boya-başa çatdığım Ağdam yüzlərlə şəhid verib. Atam müharibədən, şəhidlərimizdən çox danışıb. Uşaq yaşlarımdan hərb sənətinə üstünlük verdim. Seçdiyim peşədən, tutduğum yoldan peşman deyiləm."

Taqım komandirinə görə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Ordusu olduqca güclüdür.

"C.Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşam. Müəllimlərimdən aldığım təhsili, döyüş sirlərini əsgərlərimə də aşılamağa çalışıram."

Baş leytenant Rəşad Məmmədov əsgərlərinin təlim-tərbiyəsinə, döyüş hazırlığına ciddi önəm verir və tabeliyində olanlara hərbi bilikləri mükəmməl aşılamağa çalışır. Nümunəvi zabit şəxsi heyətə hərbi bilikləri aşılamaqda heç bir çətinlik çəkmir, çünki özü də savadlı və peşəkardır.

Zabiti sıra hazırlığı keçərkən tanıdım. O, heyət üzvlərinə sırada addımlamanı izah edirdi. Əsgərlər komandirlərinə diqqətlə qulaq asır, hərəkətləri dəqiqliklə yerinə yetirməyə çalışırdılar.

Söhbətimiz zamanı öyrənirik ki, hələ məktəbli çağlarında Rəşad general olmaq arzusunda olub və əsgərlərinə də bu arzusunu bildirib. Çünki "General olmaq istəməyən əsgər, əsgər deyil". Müdrik sərkərdələrdən biri belə deyib.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*Düşüncələr*

# Bu yol hara aparır?



*Lələtəpədən yazdığım düşüncələri "Azərbaycan" jurnalının baş redaktor müavini, ədəbiyyatşünas Südabə Ağabalayeva belə adlandırmışdı. Düşüncələr "Azərbaycan" jurnalında elə bu adla da dərc olundu və düşüncələrimi cazibəsinə saldı: "Bu yol hara aparır?". Düşüncələrimin dönməz bir istəyə ad olan sorğusudu...*

...Hər yolun başlanğıcı, sonu olur. İllərdi getməyi arzuladığımız yolun başlanğıcı Lələtəpə oldu, Bayraqtəpə oldu. Azərbaycan əsgərinin bu zəfər yollarının yolçusu olanda düşüncələrim "yerə-göyə meydan oxuyurdu"...

Yollar məni vaxtaşırı cəbhə bölgələrinə, səngərlərə aparıb. Bu yollar ürəyimdən keçən yollardı; sonu hələlik səngərlərdi bu yolların, yolun sonu deyil. Əsgərlərin ürəyindən keçən bu yolları sonacan gedəcəyik. Yadıma bir məsəl düşür: "Qananı haqq (ədalət - R.H.) əmriylə, qanmayanı yan dəmiriylə (silahla - R.H.) qandır"...

Bu yol səngərlərdən - əsgərlərin ürəyindən keçib arzuladığımız məkanlara aparacaq...

1992-ci ilin qışında Murovdağdaydım. Dekabrın 28-iydi. Döyüş növbətçiliyi dəyişdirilirdi. Qar, sazaq, şaxta hökmünü göstərirdi. Əsgərlərin qətiyyəti, cəsarəti, istəyi qışın sərtliyini sındırırdı. Bu da yol idi. Bu yol onları hələlik döyüş növbətçiliyinə aparırdı. Onda mayor Qurban Qurbanovun dedikləri döyüş növbətçiliyinə gedənlərə Vətənin tapşırığı kimi səslənmişdi: "Siz döyüş növbətçiliyinə getməklə, Ali Baş Komandanın əmriylə oradan o yana gedəcəksiniz. Bu yol sizi qələbəyə aparacaq..."...

Onda ürəyimdə bir titrəyiş hiss eləmişdim: Vətən adlı bir günəşin zərrələri, Qələbəyə aparacaq bu yol sizi!..

Döyüş növbətçiliyiylə döyüşün arası bir əmr qədərincədi.

Bir vaxtlar yol Cəbrayılın Cocuq Mərcanlı kəndinədən aparmışdı məni. Aprelədən həsrətlə baxdığımız Lələtəpəyə gedən, rəngi-rufu saralan, canına alaqlar sarılan yolun qırışığı açılıb - Azərbaycan əsgəri düşməni bu istiqamətlərdən xeyli uzaqlaşdırıb.

Lələtəpənin sağında gördüyüm yol nədənsə, könül qubarıma dönmüşdü. "Bu yol hara aparır?" - ünvansız soruşmuşdum. Əsgərlərdən biri inamla, inam qədər də qətiyyətlə, "Qələbəyə aparacaq!" demişdi. Əsgəri bağrıma basmışdım...

...Neçə illəriydi hərdən aşıb-daşan, daşanda sahillərini aşan İncəçayın incəliyini, incə dalğalarının daşları necə sığalladığını görmürdük; gözlərimizdən uzaq olsa da, könlümüzdən iraq deyildi İncəçay, İncəçayın o sahili. Apreldə Azərbaycan əsgəri bu həsrətə son qoydu. İncəçaya, İncəçaydan Bayraqtəpəyə aparan yolun sağında-solunda gördüklərim könül xoşluğuydu, şükranlığıydı. Az sonra Bayraqtəpədən qarşı tərəfi nəzarətdə saxlayan əsgərlərin yanındaydım. Oradan da yollar gördüm. Orada da soruşdum: "Bu yol hara aparır?". Orada da Lələtəpədə eşitdiyim cavabı eşitdim. "Qələbəyə aparacaq!" deyənlərin əhatəsində Azərbaycan əsgərinin uğur yolu olacaq yolları gözlərimə köçürürdüm. Məmləkət boyunca bu yolu görən-görməyən yeniyetmələr də, ağsaqqallar da, döyüşlər görmüş əlillər də - hamı bu suala eyni cavabı verəcək: aprel zəfərinin zəmanətiylə Qələbəyə aparacaq!..

Aprel ovqatıyla Bayraqtəpədən enən cığırlara, o cığırların qovuşduğu yollara baxmışdım. Elə bu inamın işığında baxmışdım...

İşğal olunmuş ərazilərimiz yolları haraylayır, yollar əsgərlərimizi. O haray da eşidiləndi, o biri haray da. İkisi də "Vətən!" deyənlərin ürəyini coşdurmaqdadı. O coşqu Böyük yolu nişan verir...

Polkovnik-leytenant Pərviz Pirməmmədovun dediklərində aprel ovqatı aydınlığıyla duyulur:

- O yollardan da keçəcəyik, o yolların sonundan o yana da gedəcəyik, harada olmalıyıqsa, orada olacağıq!..

Bu inamı necə gözlərinə nur bilməyəsən?!

O anlarda əsgərlərin barmaqları avtomatın tətiyinə meyillənmişdi. Umacaqlı baxışları komandirin üzündən üzülmürdü...

...Azərbaycan əsgəri Ali Baş Komandanın əmriylə yolların dolaşığını açacaq. Dolaşığı açılan yollar böyük yola çıxacaq. Böyük yol Kəlbəcərə, Laçına, Ağdama, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Zəngilana, Şuşaya aparacaq...

Əsgər ürəyindən başlanan bu yolun sonunda Dədə Qorqud tonqalları çatılacaq. O tonqalların şöləsi torpaqlarımıza əyri baxanların gözlərini qamaşdıracaq. O gün uzaqda deyil...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Gənc zabitlərimiz*

# "Sərhədlərimiz bərpa olunacaq"



*Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edən hər bir zabit döyüş və mənəvi-psixoloji hazırlığını daim artırır, silah arsenalımıza daxil olan müasir texnikaların idarə edilməsi istiqamətində yüksək peşəkarlıq nümayiş etdirir. Bunu aprel döyüşləri bir daha təsdiq etdi. Ordumuzda yüksək ixtisaslı peşəkar zabitlərin sayının günbəgün artması kadr potensialının daha da gücləndirilməsinə möhkəm zəmin yaradır. Bu yönümdə gənc zabitlərin fəaliyyəti də ürəkaçandır. Vətənə sədaqət andı içərək əsl azərbaycanlıya xas olan bir qürurla dövlətinə və xalqına xidmət edəcəklərinə söz verən, torpaqlarımızın müdafiəsində dayanmağı özlərinə həyat amalı seçən gənc zabitlərimiz bu şərəfli peşənin məsuliyyətini dərindən dərk edir və döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsində yüksək bacarıq nümayiş etdirirlər. Cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində ezamiyyətdə olarkən iki gənc zabit - Cavid Rüstəmov və Dünyamir Məmmədov haqqında qeydlərimi götürdüm. Onların hər ikisi taqım komandiridir. Nümunəvi xidmətləriylə hərbi hissə komandanlığının, ümumilikdə bütün şəxsi heyətin dərin rəğbətini qazanıblar. Keçirilən təlim və məşğələlərdə peşə təcrübələrini daim artırırlar.*



Leytenant Cavid Rüstəmov 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra Ulu Öndərimizin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Hərbçi olmaq, Vətənin müdafiəsində dayanmaq ən böyük arzusu olub. Elə o bu arzu, bu istəklə də zabit olacağını qarşısına məqsəd qoyub. Artıq o illər arxada qalıb. Bu gün Cavid ordumuzun gənc zabiti kimi ön xətdə doğma Vətənin keşiyindədir.

Gənc zabit tabeliyində olan şəxsi heyətə sıra hazırlığı məşğələsini keçirdi. Bugünkü məşğələnin hava şəraitinə tam uyğun olduğunu qeyd edən gənc zabit bildirdi ki, təlim və məşğələlərdə yeni-yeni təcrübələr qazanırıq. "Peşəkar zabit kimi yetişməyimizdə təlimlərin böyük əhəmiyyəti var. Bilirsiniz ki, təlimlər, məşğələlər, dərslər döyüş planına əsasən keçirilir. Bizim ən böyük vəzifəmiz döyüş və mənəvi-psixoloji hazırlığımızı artırmaq və düşmən işğalında olan torpaqlarımızı azad edib sərhədlərimizi bərpa etməkdir. Mənim fikrimcə, bu gün hər bir zabitin ən böyük arzusu yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq canımızdan, qanımızdan keçsək belə, Vətən torpaqlarını yağı düşmənin tapdağından birdəfəlik azad etməkdir. Bu yoldan bizi heç nə çəkindirə bilməz".

Cəld, çevik hərəkətləriylə diqqətimizi çəkən leytenant Dünyamir Məmmədov isə Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseydə təhsilini başa vurduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Cavid kimi o da hərbi peşəni - Vətəni qorumaq sənətini öz istəyi ilə seçib. O da sıra hazırlığının elementlərini taqımın əsgərlərinə öyrədirdi.

Çətin, eyni zamanda şərəfli saydığı hərbin yollarında döyüş bacarığını artıracağını, təcrübəli hərbçilərimizdən öyrənərək ordumuzun peşəkar zabitlərindən biri olacağını Dünyamir də qarşısına məqsəd qoyub. "Biz Azərbaycan torpağının övladlarıyıq. Hər birimiz qanımızla, canımızla, bütün varlığımızla Vətən torpaqlarını qorumağa borcluyuq. Biz Vətənin müdafiəçiləriyik. Xalqımız bizə güvənir. Böyük şairimiz Məmməd Arazın "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" misralarını hələ kiçik yaşlarımdan əzbər bilirəm. Mənim də ömür yoluma mayak olan bu misralar hər birimizə torpaqsevərlik, vətənpərvərlik kimi ülvi hisslər aşılayır. Aprel döyüşlərində ordumuzun qələbəsi bizi daha böyük qələbələrə ruhlandırdı. Biz bu döyüşlərin iştirakçısı olmasaq da, torpaqlarımızın azadlığı uğrunda mübarizəyə, Ali Baş Komandanın əmrinə hər an hazırıq."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müharibə veteranları gənclərə örnəkdir

*Azərbaycan Hərb Tarixi Muzeyində "Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin yüksəldilməsində müharibə veteranlarının rolu" mövzusunda tədbir keçirilib.*

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın Dövlət himni səsləndirilib.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq elan edərək müharibənin odalovundan keçmiş, hər bir əsgər üçün əsl qəhrəmanlıq nümunəsi olan veteranlarımızı və tədbir iştirakçılarını salamladı. Natiq çıxışında Azərbaycan Ordusunun şəxsi heyəti üçün həmişə dəyərli örnək olan insanların, ərazilərimizin bütövlüyü uğrunda şərəflə döyüşmüş müharibə veteranlarının keçdikləri döyüş yoluna nəzər saldı. Gənc nəslin vətənpərvərlik ruhunun artırılmasında qəhrəmanlarımızın, şərəfli döyüş yolu keçmiş əsgər və zabitlərimizin rolunun böyük olduğunu qeyd etdi: "Müharibə iştirakçıları Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edir, gənclərin orduya hazırlanmasında və Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunun yüksəldilməsində səylərini əsirgəmirlər. Təcrübəli döyüşçülərin, müharibə gedən ərazini dərindən tanıyan şəxslərin ön xətdə olması indiki gənclərin ruh yüksəkliyinin artırılmasında, onlara qələbə əzminin aşılanmasında mühüm vasitədir. Siz veteranların təcrübəsi, biliyi və bacarığı gənc nəslə bir örnəkdir. Ordumuzun əsgər və zabit heyəti bilsin ki, müharibə veteranları daim onların yanındadır."



Natiq veteranların ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq olduğunu, Ali Baş Komandanın, Müdafiə Nazirliyi rəhbərliyinin əmr və göstərişlərinə sözsüz tabe olacağını tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Müdafiə Nazirliyinin saytından götürülən materiallar əsasında muzeyin əməkdaşları tərəfindən hazırlanmış videoçarx nümayiş olundu.

Ehtiyatda olan polkovnik Xətai Baxışov aprel döyüşlərində Azərbaycan əsgərinin düşmənə sarsıdıcı cavab zərbəsi endirərək xalqımızın qəhrəmanlıq tarixinə yeni parlaq səhifə yazdığını bildirdi: "Ordumuzun gücünü bütün dünya hiss etdi. Veteranlar həmin hadisələrlə əlaqədar ön cəbhədə əsgər və zabitlərimizlə çiyin-çiyinə oldular və yaşlarının bu çağında da düşmənlə vuruşmağa hazır olduqlarını sübut etdilər."

Xətai Baxışov qarşıdan gələn 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir iştirakçılarını təbrik etdi. Azərbaycan xalqına sülh və əmin-amanlıq arzuladı.

Tədbirdə ehtiyatda olan zabitlər - Abuzər Əbilovun, Qurban Qurbanovun, Qabil Allahyarovun və başqalarının çıxışları dinlənildi. Onlar müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirməklə yanaşı, bundan sonra da gənclərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda onların mübarizəyə hazırlanmasında səylərini əsirgəməyəcəklərinə söz verdilər.

Sonda Müharibə Veteranları və Beynəlmiləlçi Hərbçilər İctimai Birliyinin adından Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda baş vermiş döyüşdə fəal iştiraka və atəşkəs dövründə düşmənlə təmas xəttində yaranmış gərginlik zamanı verdiyi mənəvi dəstəyə görə müharibə veteranları fəxri fərmanla təltif edildilər.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Hərbi yeniliklər, ənənələr



## Müasir optik-elektron kompleksləri

Səhra şəraitində günün qaranlıq vaxtında və kəskin hava şəraitində düşməni aşkar etmək çətin olur. Bu çətinliyi aradan qaldırmaq üçün xüsusi təyinatlı döyüşçülər yeni yüksək keyfiyyətə malik optik-elektron komplekslərdən istifadə edəcəklər. Düşməni dəqiq aşkar etmək və yaxın məsafədən kəşfiyyat aparmaq üçün "Fara" radiolokasiya stansiyası hazırlanıb. Bu aparatla on kilometrlik məsafədən obyekti aşkar etmək mümkündür. "Fara-BR" radiolokasiya sistemi düşməni aşkar etməkdən başqa artilleriya və aviasiya zərbələri endirmək üçün lazım olan məlumatları ötürməyə də qadirdir.

Bu aparatın "Peçeneq" pulemyotunda və ya AQS-1730 qumbaraatanında quraşdırılması daha böyük imkanlara zəmin yaradır. Mütəxəssislərin məlumatına görə, bu qurğular vacib avtotanıma və avtomüşayiətetmə rejimində işləyə bilər.

Digər yeni optik-elektron aparatlardan biri də "İntriqan"dır ki, o da yüksək dəqiqliklə hədəfləri aşkar edə bilir. Ekspertlərin məlumatına görə, çox da böyük aparat deyil və iki nəfər operatorla idarə olunur. Cihazlarla birlikdə aparat xüsusi teleskopik qülləyə bərkidilir. Kənardan baxanda robota oxşayır. Bu modelin üzərində teplovizor, lazerli məsafəölçən və müasir optik cihaz quraşdırmaq olar.



"İroniya" isə çoxfunksiyalı kompleksdir, tez bir vaxtda düşməni aşkar edir və onun yerləşdiyi ərazi haqqında məlumatları dəqiq öyrənməyə imkan verir. "İroniya"nın da heyəti iki nəfərdən ibarətdir. Onlardan biri düşmənin texnikasını izləyir və lazımi obyektlərin koordinatlarını müəyyən edir, ikincisi isə rabitə vasitəsilə məlumatları adi miniatür kompüterlə qərargaha ötürür. Əsgər bu cihazı gödəkçəsinin cibində də gəzdirə bilər. Onun əsas xüsusiyyətlərindən biri də başqa mobil qruplarla əlaqə saxlaya, məlumat mübadiləsi apara bilməsidir. Hətta foto və videofaylları ötürə bilər, düşmənin radioelektron mübarizəsində də fəaliyyət göstərməyə qadirdir. Bu daşınan kompleks yüksək texnoloji və müasir cihaz sayılır. Az çəkiyə, 3000 metrlik məsafədən düşmənin canlı qüvvəsini aşkar etməyə qadir və kiçik ölçüyə malik olan, cibdə və səyyar çantada daşınmağa imkan verən bu cihaz çoxlu sayda tapşırıqları yerinə yetirə bilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusunun 4 əsgəri şəhid olub



Suriyanın Əl-Bab bölgəsində İŞİD terrorçu qrupları ilə döyüşlərdə Türkiyə Silahlı Qüvvələrinin 4 əsgəri şəhid olub, 15 nəfər yaralanıb. Yaralıların bəzilərinin vəziyyəti ağırdır.

Əl-Babın strateji yerləri Azad Suriya Ordusu və Türkiyə əsgərlərinin birgə əməliyyatı nəticəsində İŞİD-dən təmizlənib.

## İrkutskda "Yemişan" içkisindən zəhərlənərək ölənlərin sayı 63 nəfərə çatıb



Rusiyanın İrkutsk şəhərində tərkibində spirt olan "Yemişan" içkisindən zəhərlənərək ölənlərin sayı 63 nəfərə, yaralıların sayı isə 109 nəfərə çatıb.

Bu barədə TASS-ın müxbirinə Rusiya Səhiyyə Nazirliyinin regional nümayəndəliyindən bildirilib. Məlumatda bildirilir ki, xəsarət alanlardan biri gecə ərzində xəstəxanada dünyasını dəyişib. Hazırda tibb müəssisələrində 37 nəfər müalicə alır.

İrkutskda tərkibində spirt olan məhsulların satışı qadağan edilib. Qadağa ticarət nöqtələrində yoxlamalar başa çatanadək qüvvədə olacaq.

## Saxara səhrasına son 37 ildə ilk dəfə qar yağıb



Afrikanın Saxara səhrasına son 37 ildə ilk dəfə qar yağıb.

Səhranın qar mənzərələrini Saxaranın şimalında, Əlcəzairin Ayn-Sefra şəhəri yaxınlığında həvəskar fotoqraf Kərim Buştet çəkib. Onun sözlərinə görə, qar yerdə bir günə yaxın qalıb və sonra əriməyə başlayıb. Ayn-Sefra şəhəri "Səhranın qapısı" kimi tanınır. Bu regionda yayda havanın temperaturu müsbət 37 dərəcəyədək yüksəlir, qışda donma dərəcəsinədək endiyi vaxtlar olur.

Bu, bütün müşahidələr müddətində qeydə alınan ikinci belə hadisədir. Saxaraya birinci dəfə qar 1979-cu il fevralın 18-də, yenə Ayn-Sefraya yağmışdı.

## Almaniyada törədilmiş terror aktına görə dörd nəfər həbs olunub



Almaniyada törədilmiş terror aktına görə dörd nəfər həbs olunub.

Polis onların Tunisdən olan şübhəli Anis A ilə əlaqələrinin olduğunu bildirib.

Qeyd edək ki, Berlindəki Milad bazarında 12 nəfərin həlak olması ilə nəticələnmiş terror aktı 1980-ci ildən sonra bu ölkədə baş verən ən dəhşətli hadisə hesab edilir. Terror aktına görə məsuliyyəti İŞİD öz üzərinə götürüb.

## Çexiya sərhəd nəzarətini gücləndirir




Çexiya Berlində Milad yarmarkalarından birində terror aktının törədilməsi ehtimalı ilə əlaqədar öz sərhədlərində seçmə qaydada yoxlamalar tətbiq edib. Amma çexiyalı polislərdə kimin axtarılması barədə konkret informasiya yoxdur.

Almaniya polisindən bildiriblər ki, bu işlə əlaqədar həbs edilmiş pakistanlının, çox güman, yük maşınının Milad yarmarkasına gələnlərin üstünə sürülməsi hadisəsində əli yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

*Redaksiyamızın poçtundan*

# Biz də qürurlanırıq!..

*Bir tələbə olaraq müstəqil dövlətimizlə, güclü ordumuzla mən də fəxr edirəm. Atam zabitdir, həmişə ötən illərdən, Sovet dövründə keçən əsgəri xidmətindən söhbət açanda deyir ki, müasir gənclərimiz xoşbəxtdirlər ki, doğma, müstəqil Vətənimizdə xidmət etmək onlara nəsib olub. Bu gün hamımız fəxr duyuruq ki, dünyada tanınan Azərbaycan adlı bir dövlətin vətəndaşlarıyıq.*

Hər il ölkəmizdə 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edirik. İlk dəfə bu tarixi gün Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyev tərəfindən qeyd edilib. Sonradan isə ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunmağa başlanılıb. Nəinki Azərbaycanda, həmçinin dünyanın hər yerində soydaşlarımız bu günü əlamətdar hadisə kimi qeyd edərək milli birlik nümayiş etdirirlər. İldən-ilə bu bayram öz təntənəsi ilə yaddaşlara həkk olunur.

Tarixən Azərbaycanın düşmənləri sərvətlərimizə, bərəkətli torpaqlarımıza göz dikiblər. Mənfur ermənilər öz havadarlarının gücü ilə Vətənimizin bir hissəsini işğal edib. Amma bu müvəqqətidir, güclənən dövlətimizin və qüdrətli ordumuzun hesabına torpaqlarımız işğaldan azad ediləcək. Doğma ordumuzun aprel zəfəri mənə də böyük qürur yaşatdı. İndi düşməndən azad edilmiş bəzi yüksəkliklərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. İnanıram ki, güclü həmrəylik nümayiş etdirməklə biz düşmənlərimizə qəti sözümüzü deyəcəyik.

**Səkinə PƏNAHOVA,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbəsi**



*Salam, əziz əsgərlər!*

*İndi qışın qarlı-şaxtalı günlərini yaşayırıq. Hər yer ağ rəngə bürünüb. Biz isti evimizdə sakit, firavan yaşayırıq. Sizlər isə soyuq və şaxtalı havada, səngərlərdə Vətənimizin keşiyində dayanıb bizi qoruyursunuz. O gün sizi televizorda belə havada səngərdə gördüm. Bax, onda sizə məktub yazmağı qərara aldım. Sizin kimi igid oğullarımızla fəxr edir, qürur hissi duyuruq.*

*Mən də dərslərimi əla oxuyacam və gələcəkdə sizin kimi Vətənimizə şərəflə xidmət edəcəm.*

**Ömər ƏHMƏDOV,**
**Nərimanov rayonu,**
**93 saylı məktəbin 1-ci sinif şagirdi**

*Kim xalqının tarixiylə qürurlanmır? Kim xalqının mədəniyyətini dünyanın heyrət ünvanı bilmir? Kim özünü milli ruhun zərrəsi hesab eləmir?..*

Xalqımızın tarixiylə, mədəniyyətiylə, incəsənətiylə, ordusunun gücü ilə qürurlananlardan biri də mənəm...

31 Dekabr dünya azərbaycanlılarının birliyini təsdiq edən Həmrəylik Günüdür. Bu günün də özünəməxsus yeri var. Biz gənclər bunun mahiyyətini yaxşı anlayır, yaxşı azərbaycanlı olmağa çalışırıq. Yaxşı azərbaycanlı olmaq nədir? - öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək, xalqının tarixini, mədəniyyətini bilmək, bilmək azdı, onu sevmək, yaşantılarına hopdurmaq.

Azərbaycan bu gününə qədər əzablı yollardan keçib. Dostlarını, düşmənlərini ayırd edib. Güclü dövlət olmaq üçün zaman-zaman mübarizə aparıb. Yüz illərlə birlik mücadiləsi gedib. Bununla bağlı ilk addımları atan Quba xanı Fətəli xan olub. O, Azərbaycanı bir bayraq altında birləşdirmək üzrəydi. Xanlıqlar arasında hakimiyyət davası buna imkan vermədi, Fətəli xanın Azərbaycanı birləşdirmək ideyası boşa çıxdı.

1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında "Gülüstan" müqaviləsi imzalandı. Azərbaycanın rəyi olmadan onun torpaqlarının bir hissəsi itirildi. Bu bölüşdürmə 1828-ci il fevralın 10-da "Türkmənçay" müqaviləsi ilə başa çatdı. Azərbaycana, xüsusilə də İrəvana çoxlu sayda erməni ailəsi köçürüldü və özlərinə etnik dayaq yaratdılar.

Bu haqsızlıqlar, bu məkrli siyasət Azərbaycanı sarsıtmadı. Xalq müstəqilliyinə nail olmaq üçün mübarizə apardı. 1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı, 23 aydan sonra ilhaq edildi. Xalq o vaxtdan mübarizə apararıdı. Nəhayət, bir əsrdə ikinci dəfə müstəqillik əldə etdik...

Xalqın tələbi ilə dahi tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıtdı...

1991-ci il dekabrın 16-da Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev 31 dekabrı azərbaycanlıların həmrəylik günü kimi qeyd edilməsinin vacibliyini vurğuladı və həmin ildən Naxçıvanda, 1994-cü ildən Azərbaycan Respublikasında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təntənəylə qeyd olunur.

Mən şagirdəm. Mən də azərbaycanlı kimi xalqımızın xidmətində dayanacam. Ulu Öndərimiz deyirdi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam!". Biz gənclər də azərbaycanlı olmağımızla qürurlanırıq.

**Hüsniyyə İDRİSOVA**

# Ordumuz - inamımız, güvəncimiz

"Aprel zəfəri tarixləşməlidir." Döyüş bölgələrindən birində yerli əhaliylə görüşəndə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi bu fikirlər aprel döyüşlərinə verilən böyük dəyərdir. Bu döyüşlər həm də xalqın inamının, güvəncinin qələbəsi oldu.

Döyüşlərdə Samid İmanovun şücaəti haqqında oxuduğum məqalələr, eləcə də eşitdiklərim məni həm azərbaycanlı zabitin Vətən sevgisinin təsdiqi kimi, həm də azərbaycanlı zabitin tabeliyində olan hərbi qulluqçulara münasibəti ilə duyğulandırdı. Ağır yaralanan mayor Samid İmanov kömək eləmək istəyən əsgərə ona yox, yaralı əsgərə yardım etməsini istəyib, tələb edib və döyüşü davam etdirib...

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə mayor Samid İmanova Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Aprel döyüşləri də tarixdir, Samidərin döyüşü də, qazanılan qələbə də. Biz gənclər döyüşlərdə şəhid olanları qardaşımız bilirik. Aprel zəfəri öz yerində, Samidlərin şəhidliyi, Samidlərin necə şəhid olması düşmənə bir həqiqəti də anlatdı ki, torpaqlarımızı işğalda çox saxlaya bilməyəcəklər.

"Azərbaycan Ordusu" qəzetində oxuduğum məqalələrdən birində könlümə yatan bir fikri də xatırlayıram. Məqalə ön xətdə düşmənlə üzbəüz səngərlərdə xidmət edən, döyüş növbətçiliyi aparan əsgərlərə həsr olunmuşdu.. Müəllif yazır: "...Səngərin bu üzündə vətənsevərlik dayanıb, o üzündə işğalçılıq. Səngərlərin bu üzünün işığı o üzünün gözlərini qamaşdırır..." Bu sözləri oxuyanda biz gənclər görmədiyimiz səngərlərdəki əsgərlərimizlə, əsgərlərin timsalında ordumuzla qürurlanırıq. Belə qürurlanmağımız da tarixdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın dediyi fikirdən - "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var" fikrindən qürurlandığımız kimi qürurlanırıq. Azərbaycan güclü dövlət olmasaydı, dünyanın əksər iri dövlətləri onunla müxtəlif sahələr üzrə əməkdaşlıq etməzdi. Azərbaycan güclü dövlət olmasaydı, bu dövlətlər onunla əlaqələri bu səviyyədə davam etdirməzdi. Azərbaycanın Ordusu güclü olmasaydı, Türkiyə kimi böyük bir dövlət onunla birgə təlimlər keçirilməsinə razı olmazdı... Azərbaycan Ordusu güclü olmasaydı, aprel döyüşlərində qısa müddətdə böyük zəfərlər qazana bilməzdi. Bu zəfərlər tarixdir və Azərbaycan Ordusu ən böyük zəfəri də qazanacaq, bizə daha böyük qürur yaşadacaq - torpaqlarımızı işğaldan tamamilə azad edəcəkdir. Xalq ordusuna inanır, güvənir.

**Gülsurə HÜSEYNOVA**

# Hərbi qulluqçular arasında bədii özfəaliyyətə baxış-müsabiqəsi keçirilir




Gəncə Qarnizonu Zabitlər Evində Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevin təsdiq etdiyi plana əsasən, hərbi qulluqçular arasında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilən bədii özfəaliyyətə baxış-müsabiqəsi keçirilir.

Baxış-müsabiqədə hərbi qulluqçuların bədii yaradıcılığın müxtəlif növlərində (mahnı, muğam, rəqs, instrumental ifaçılıq, bəstəkarlıq, poeziya, bədii qiraət və s.) öz istedad və qabiliyyətlərini nümayiş etdirməsinə imkan yaradılıb.

Beyləqan, Bərdə, Şəmkir və Gəncədə təşkil olunan seçim turlarında 221 hərbi qulluqçu iştrak edib. Seçilən 98 nəfər hərbi qulluqçudan 25-i yarımfinala keçib.

# Şəhid Qalib Zülfüqarlının xatirəsi anılıb



Dekabrın 20-də Lənkəran şəhərindəki 7 nömrəli tam orta məktəbdə bu təhsil ocağının məzunu olmuş Silahlı Qüvvələrimizin şəhid zabiti Qalib Zülfüqarlının doğum günü ilə əlaqədar xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə rayonun icra strukturlarının nümayəndələri, hərbi qulluqçular, Qarabağ müharibəsi veteranları, məktəbin şagird və müəllimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən məktəbin direktoru Ülviyyə Əliyeva şəhid zabitin qısa, lakin mənalı ömür yolundan danışıb. Qeyd olunub ki, Qalib Zülfüqarlı 1992-ci il dekabrın 20-də Lənkəran şəhərində anadan olub. Şəhər 7 nömrəli tam orta məktəbi bitirdikdən sonra 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. O, 2014-cü ildə leytenant rütbəsi ilə cəbhənin ön sıralarında hərbi xidmətini davam etdirib. İgid zabit 2015-ci il martın 27-də Azərbaycan-Ermənistan sərhədinin Qazax rayonu ərazisində düşmən təxribatının qarşısını alarkən şəhid olub.

Diqqətə çatdırılıb ki, Qalib Zülfüqarlı ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif edilib.

Lənkəran Rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov, Milli Qəhrəman Əsgər Əliyevin atası Ələkbər Əliyev, Lənkəran şəhər Təhsil Şöbəsinin nümayəndəsi Cəmil Axundzadə, Qarabağ Müharibəsi Əlilləri və Veteranları Cəmiyyətinin sədri Əbülfət Əliyev, müəllim Amil Qurbanov və başqaları Vətən torpaqları uğrunda şəhid olmuş Qalib Zülfüqarlının daim xatirələrdə yaşayacağını, onun qısa, lakin mənalı ömür yolunun gənclərə örnək olduğunu bildiriblər.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 600
Nüsxə 4650